AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# ƏLAVƏ DƏYƏR VERGİSİ (ƏDV)

BAKI – 2025

# Əlavə dəyər vergisinin (ƏDV) ödəyicisi kimlərdir?

**ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs ƏDV-nin ödəyicisidir.**

## ƏDV-nin dərəcəsi neçə faizdir?

Hər bir vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin vergi dərəcəsi **18 faiz** təşkil edir*.

Bundan başqa, ƏDV-nin Vergi Məcəlləsinin 165-ci maddəsində təsbit olunan **0 (sıfır)** faiz dərəcəsi ilə tətbiq olunması və Vergi Məcəlləsinin 164-cü maddəsində təsbit olunan ƏDV-dən azad olunması halları da mövcuddur.

**2022-ci il yanvarın 1-dən 5 il** müddətində kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanan verginin məbləğidir.

## Kimlər ƏDV qeydiyyatına alınmalıdır?

- Sahibkarlıq fəaliyyəti çərçivəsində vergi tutulan əməliyyatlarının həcmi **ardıcıl 12 aylıq dövrün** istənilən ayında (aylarında) **200.000** manatdan artıq olan şəxs **növbəti ayın 1-dən 10 gün müddətində** ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.
- Bir əqd və ya müqavilə üzrə ƏDV-yə cəlb olunan əməliyyatının ümumi dəyəri **200.000** manatdan artıq olan şəxs əməliyyatın aparıldığı günədək ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

---

* Vergi tutulan dövriyyə hesabat dövrü ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarətdir.

- Birgə sahibkarlıq fəaliyyətinin iştirakçısı ƏDV ödəyicisi olduqda, həmin fəaliyyətin uçotunu aparan şəxsyuxarıda qeyd edilən iki haldan biri müəyyən edildiyi halda, yaxud iştirakçı ƏDV-nin məqsədləri üçün vergi ödəyicisi olduğu halda ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.
- Aksizli və məcburi nişanlama ilə nişanlanmalı malların istehsalçısı və bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər dövlət qeydiyyatına və ya vergi orqanında uçota alınmaq üçün ərizə ilə birlikdə, bu fəaliyyətlə sonradan məşğul olduqları halda isə həmin fəaliyyəti həyata keçirməyə başladığı günədək ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludurlar.
- Rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentlər (daimi nümayəndəliklər istisna olmaqla) ƏDV-nin ödəyiciləri sayılır və onlar Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınırlar.

**Könüllü olaraq da ƏDV qeydiyyatına alınmaq üçün müraciət edə bilərsiniz.**

Bunun üçün uçotda olduğunuz vergi orqanına “Vergi ödəyicisinin əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alınması haqqında Ərizə”ni təqdim edə bilərsiniz.

Həmçinin, beynəlxalq sərnişindaşıma və taksi fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə respublikanın ərazisində sərnişin daşımalarını həyata keçirən və göstərilən xidmətlərin dəyərini nağdsız qaydada əldə edən şəxslər əvvəlki **3 il** müddətindən çox olmamaqla, vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə vermək hüququndan istifadə edə bilərlər. Bu zaman onların ƏDV qeydiyyatı təqdim edilən ərizədə göstərilən tarixdə qüvvəyə minir.

**Bu maddənin müddəaları 2024-cü il yanvarın 1-dən əvvəlki dövrə münasibətdə respublikanın ərazisində yükdaşımalar həyata keçirən şəxslərə tətbiq edilmir.**

## ƏDV-nin məqsədləri üçün uçota alındıqdan sonra nə etməlisiniz?

- Azərbaycan Respublikasının ərazisində mallar (işlər, xidmətlər) təqdim etdikdə, vergi ödəyicisi olmayan alıcıya NKA çeki və (və ya) mədaxil qəbzi, vergi ödəyicisi olan alıcıya isə elektron qaimə-faktura verməli;
- ƏDV-dən azad olunan malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) istisna olmaqla, təqdim edilmiş bütün malların (görülən işlərin, göstərilən xidmətlərin) dəyərinə ƏDV tətbiq etməli;
- Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV-nin məbləğini müəyyən etdikdən sonra təqvim ayından **sonrakı ayın 20-dən** gec olmayaraq "Əlavə dəyər vergisinin bəyannaməsi"ni vergi orqanına təqdim etməli və həmin müddətdə hesablanmış vergi məbləğini dövlət büdcəsinə ödəməlisiniz.

### Vergi tutulan əməliyyatın aparıldığı vaxt və idxalın vaxtı

- **Vergi tutulan əməliyyatın vaxtı** təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin aparıldığı vaxtdır. Ödəmə aşağıdakı vaxtda aparılmış sayılır:
  - NKA tətbiq etməli olan fəaliyyət növləri istisna olmaqla, digər fəaliyyət növləri üzrə nağd pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin onun bank və digər ödəniş hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt;
  - NKA tətbiq etməli olan fəaliyyət növləri üzrə ödənişlə (nağd və ya nağdsız) bağlı - NKA çekinin vurulduğu tarix;
  - qarşılıqlı hesablaşmalar aparıldıqda - öhdəliyin ləğv edildiyi və ya ödənildiyi vaxt;
  - malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə – iddia müddətinin bitdiyi vaxt;
  - natura şəklində aparıldıqda, habelə barter edildikdə – aktivlərin əldə edildiyi (barter edildiyi) vaxt;

- əvəzsiz təqdim edildiyi hallarda - təqdimetmənin həyata keçirildiyi vaxt;
- tələb hüququ güzəşt edildikdə – güzəşt edilən məbləğ üzrə tələb hüququnun güzəşt edildiyi vaxt.
- ƏDV ödəməklə əldə edilmiş və müvafiq əvəzləşdirmə alınmış və ya almaq hüququna malik olan malların (işlərin, xidmətlərin) qeyri-kommersiya məqsədləri üçün istifadəyə verilməsi üzrə vergi tutulan əməliyyatın vaxtı həmin malların (işlərin, xidmətlərin) qeyri-kommersiya məqsədləri üçün istifadəyə verildiyi vaxt sayılır.
- Fövqəladə hallardan, qanunvericiliklə müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələ gələn itkilərdən, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələrdən başqa, malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması üzrə vergi tutulan əməliyyatın vaxtı həmin malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanmasının baş verdiyi vaxt (gün) sayılır.
- Vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində qalan mallar üzrə vergi tutulan əməliyyatın (o cümlədən malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə) vaxtı ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) sayılır.

- **Vergi ödəyicisi tərəfindən təqdim edilən və dəyəri ödənilməyən mallar (işlər, xidmətlər) üzrə həmin malların (işlərin, xidmətlərin) alıcısı tərəfindən malları (işləri, xidmətləri) təqdim edən vergi ödəyicisinə borc vəsait verildikdə, ƏDV tutulan əməliyyatın vaxtı aşağıdakı vaxt hesab edilir:**
  - mallar (işlər, xidmətlər) təqdim edildikdən sonra verilmiş borclar üzrə (kredit təşkilatları və bank əməliyyatları aparan şəxslər tərəfindən verilmiş borclar istisna olmaqla) – borcun verildiyi vaxt;
  - mallar (işlər, xidmətlər) təqdim edilənədək verilmiş borclar üzrə (kredit təşkilatları və bank əməliyyatları aparan şəxslər tərəfindən

verilmiş borclar istisna olmaqla) – malların (işlərin, xidmətlərin) təqdim edildiyi vaxt.

- Vergi tutulan əməliyyat üzrə iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat sayılır.
- Ödəmə malların (işlərin, xidmətlərin) təqdim edilməsinədək həyata keçirildikdə, vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır.
- ƏDV tutulan əməliyyatın vaxtı məqsədləri üçün ödəmə dedikdə, təqdim edilmiş malların (işlərin, xidmətlərin) ƏDV-siz dəyərinin və ya ƏDV məbləğinin ödənilməsi nəzərdə tutulur.
- Gömrük qanunvericiliyinə uyğun mallara gömrük rüsumları tutulduğu vaxt malların idxal edilməsi vaxtı sayılır. Əgər idxal olunan mallar gömrük rüsumlarından azad edilirsə, malların idxal edilməsi vaxtı onların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt sayılır.

**Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli ƏDV**

- Vergi tutulan əməliyyatların aparıldığı hesabat dövrü ərzində vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV-nin məbləği vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən elektron qaimə-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərq kimi müəyyən olunur.
- ƏDV tutulan dövriyyənin dəqiqləşdirilməsi həyata keçirilən zaman dəqiqləşdirilmə aparılan dövrdə ödənilməli olan ƏDV-nin məbləği vergi ödəyicisinin bəyannamədə göstərdiyi ƏDV-nin məbləğindən artıq olduqda, artıq məbləğ qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövrü ərzində ödənilməli olan ƏDV sayılır və hesabat dövrü ərzində ödənilməli verginin məbləğinə əlavə edilir.
- Respublika ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışını həyata keçirən vergi ödəyiciləri həmin malların

uçotunu ayrıca aparır, əks halda, bu mallar üzrə ƏDV ümumi dövriyyədən hesablanır.

**2022-ci il yanvarın 1-dən** əldə edilmiş kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) alışı elektron qaimə-faktura, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), habelə elektron alış aktı ilə, topdan və pərakəndə satışı müvafiq olaraq elektron qaimə-faktura və nəzarət-kassa aparatının çeki ilə rəsmiləşdirildiyi halda, qeyd edilən tarixdən **5 il müddətində** ƏDV ticarət əlavəsindən hesablanır, əks halda, bu mallar üzrə ƏDV ümumi dövriyyədən hesablanır.

- Tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin hesabat dövrü ərzində əhaliyə göstərilən tibbi xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsinin **50 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə** onun vergi tutulan ümumi dövriyyəsindən çıxılır. Nağdsız ödəmələr NKA-ya vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparılmalıdır.

### Malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləğinin Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq əvəzləşdirilməsi şərtləri

- Alınmış mallara (işlərə, xidmətlərə) görə onları təqdim edən şəxsdən elektron qaimə-faktura əldə edilməli;
- Malların (işlərin, xidmətlərin) alışı sahibkarlıq fəaliyyəti və ƏDV tutulan əməliyyatların məqsədləri üçün olmalı;
- Elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri alıcının bank və digər ödəniş hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank və digər ödəniş hesabına köçürülməli;
- ƏDV məbləği alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən bir iş günü müddətində (ƏDV qeydiyyatının keçmiş tarixə aparıldığı hal istisna olmaqla) ƏDV-nin depozit hesabına ödənilməlidir. Bu zaman malların (iş və xidmətlərin) dəyəri üzrə iki və ya daha çox

ödəmə aparılarsa, ƏDV-nin məbləği aparılmış ödəniş məbləğinə uyğun olaraq ƏDV-nin depozit hesabına ödənilməlidir.

Malların (işlərin, xidmətlərin) barter edilməsi, təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri üzrə yaranmış maliyyə öhdəliklərinin qarşılıqlı şəkildə əvəzləşdirilməsi və ya notariusun depozit hesabı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə əməliyyatın dəyərinin notariusun bankda açdığı depozit hesabına ödənilməsi həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank və digər ödəniş hesabına ödənilməsinə bərabər tutulur.

Müvəqqəti idxal şəklində Azərbaycan Respublikasının ərazisinə buraxılan və müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar sonradan sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirildiyi halda, idxal əməliyyatı üzrə ödənilmiş ƏDV məbləğləri malların sərbəst dövriyyəyə buraxıldığı hesabat ayında əvəzləşdirilir.

Alınmış mallarla (işlərlə, xidmətlərlə) bağlı yaranmış borclar üzrə faktorinq (tələbin güzəşti) əməliyyatları çərçivəsində əməliyyatın dəyəri faktorun (tələb güzəşt edilən şəxsin) bank və digər ödəniş hesabına, ƏDV məbləği isə satıcının ƏDV depozit hesabına ödənildikdə ödənilmiş ƏDV məbləği əvəzləşdirilir.

- Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri tərəfindən 2022-ci il yanvarın 1-dən əldə edilmiş kənd təsərrüfatı məhsullarına görə **5 il** müddətində ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir.
    - Yuxarıda qeyd edilən bəndin müddəalarından asılı olmayaraq, idxal edilmiş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri idxal etdikləri kənd təsərrüfatı məhsullarına görə ödənilmiş ƏDV-ni əvəzləşdirmək və həmin məhsulların təqdim edilməsi zamanı ƏDV-ni əməliyyatın tam dəyərindən hesablamaq hüququna malikdirlər. Bu məqsədlə həmin şəxslər öz seçimləri barədə 2024-cü il yanvarın 1-dən kənd təsərrüfatı məhsullarını idxal edəcəkləri tarixədək İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş məlumat formasını uçotda olduğu vergi orqanına təqdim etməlidirlər. Vergi ödəyicisi məlumat formasını müəyyən edilmiş müddətdə təqdim etmədikdə, yuxarıda

qeyd edilən bəndin müddəaları tətbiq olunur. Vergi ödəyicisinin bu bənd ilə müəyyən edilmiş seçimi il ərzində dəyişdirilmir.

- Sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakteri daşıyan vergi ödəyicisinin bu cür fəaliyyət çərçivəsində çəkilərək gəlirdən çıxılan xərcləri, habelə nümayəndəlik xərclərinin, işçilərlə bağlı mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı norma daxilində gəlirdən çıxılan xərclər istisna olmaqla, işçilərin və onların ailə üzvlərinin sosial xarakterli və əyləncə xərcləri çəkiləndə, ƏDV-nin əvəzləşdirilməsinə yol verilmir.
- Əmtəəsiz əməliyyatlar çərçivəsində əldə edilmiş sənədlər ƏDV-nin əvəzləşdirilməsinə əsas vermir.
- Hüquqi və fiziki şəxslər tərəfindən daşınar və daşınmaz əmlakların, qeyri-maddi aktivlərin, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına), eləcə də siyahısı Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara əvəzsiz olaraq verilməsi halı istisna olmaqla, ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən, ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilmir.
- Dövlət büdcəsindən ayrılan vəsaitlər (subsidiya və geri qaytarılmalı vəsaitlər istisna olmaqla) hesabına mallar (işlər, xidmətlər) alınarkən, ödənilmiş ƏDV -nin məbləği əvəzləşdirilmir.

**Qeyd:** ƏDV-nin əvəzləşdirilməsi şərtləri və bu zaman vergi tutulan əməliyyatın vaxtı barədə ətraflı məlumatı **Vergi Məcəlləsinin 175-ci maddəsindən** əldə edə bilərsiniz.

# Sıfır (0) dərəcə ilə ƏDV-yə cəlb olunma halları

- Qrant müqaviləsi (qərarı) əsasında xaricdən alınan qrantlar hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;
- Malların (o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən respublikanın ərazisində ƏDV-nin qaytarılması qaydasında satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərindən əldə edilmiş istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların) və müəyyən iş və xidmətlərin ixracı;
- Beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması, habelə tranzit yük daşınması ilə bilavasitə bağlı yük aşırılma xidməti;
- Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi, habelə beynəlxalq və tranzit yük daşınması ilə bağlı ekspeditor xidmətlərinin göstərilməsi;
- Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada malların ixrac qeydi ilə satışı;
- Müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitin qoyulması (əsas vəsaitin pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda);
- Vergi Məcəlləsində nəzərdə tutulan digər hallar.

**Qeyd:** ƏDV-yə sıfır (0) dərəcə ilə cəlb olunma halları barədə ətraflı məlumatı **Vergi Məcəlləsinin 165-ci** maddəsindən əldə edə bilərsiniz.

## ƏDV-dən azadolma halları

- maliyyə xidmətlərinin göstərilməsi, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən faizlər;
- ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar çərçivəsində əldə edilmiş aktivlərin (əsas vəsaitlərin) maliyyə lizinqi müqaviləsi üzrə təqdim edilməsi;
- idxal olunan əmlak istisna olmaqla müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın (əsas vəsaitlər istisna olmaqla) qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda);
- siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən media məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı;
- mətbu media məhsullarının və kitabların (o cümlədən elektron kitabların), habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla);
- media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi – 2023-cü il yanvarın 1-dən **3 il** müddətinə;
- yalnız elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı və satışı;
- istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən

çox olmayan hibrid avtomobillərin idxalı və satışı - 2022-ci il yanvarın 1-dən **4 il müddətinə;**

- elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı - 2022-ci il yanvarın 1-dən **5 il** müddətinə;
- Azərbaycan Respublikasının ərazisində istehsal olunan minik avtomobillərinin satışı – 2023-cü il mayın 1-dən **10 il müddətinə;**
- Azərbaycan Respublikasının ərazisində istehsal olunan avtobusların satışı, habelə İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında hüquqi şəxslər tərəfindən istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı – 2025-ci il yanvarın 1-dən **8 il müddətinə;**
- dəfn və qəbiristanlığın mərasim xidmətləri;
- ödənişli təhsil xidmətlərinin göstərilməsi (digər fəaliyyətləri ilə bağlı xidmətlərin göstərilməsi istisna olmaqla);
- “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun, habelə siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondların vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi - 2024-cü il yanvarın 1-dən **3 il müddətinə;**
- tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində tibbi xidmətlərin göstərilməsi - 2024-cü il yanvarın 1-dən **3 il müddətinə;**
- kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr — 2014-cü il yanvarın 1-dən **13 il** müddətinə;
- qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada fiziki şəxs tərəfindən gömrük sərhədindən keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar;
- siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin idxalı (təsdiq edilən siyahılarla eyni gündə qüvvəyə minir);

- buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2017-ci il yanvarın 1-dən **10 il müddətinə;**
- damazlıq heyvanların idxalı və satışı;
- toxum və tinglərin idxalı və satışı;
- siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən mineral gübrələrin, pestisidlərin idxalı və satışı (təsdiq edilən siyahılarla eyni gündə qüvvəyə minir);
- toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı;
- kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı;
- siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin istehsalı, idxalı və satışı;
- kənd təsərrüfatı texnikalarının mülkiyyət hüququnun keçməməsi şərtilə kənd təsərrüfatı istehsalçılarına lizinqə (icarəyə) verilməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalçılarına aqrotexniki xidmətlərin göstərilməsi;
- kəpəyin istehsalı və satışı - 2019-cu il martın 1-dən **8 il müddətinə;**
- heyvan və quş ətinin satışı - 2020-ci il yanvarın 1-dən **7 il müddətinə** (kəsilmiş və dondurulmuş heyvan və quş ətləri istisna olmaqla, emala məruz qalan heyvan və quş ətinə münasibətdə tətbiq edilmir);
- siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr - 2020-ci il yanvarın 1-dən **7 il müddətinə;**
- bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binanın yaşayış sahəsinin dövlətə ayrılan hissəsinin təqdim edilməsi üzrə dövriyyələr;
- qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və

emalı işlərinin görülməsi məqsədilə İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalı – 2021-ci il yanvarın 1-dən **6 il müddətinə;**

- külçə, sikkə və ya qranul şəklində qızılın və gümüşün satışı;
- lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə xidmətlərin göstərilməsi;
- özəl baytarlıq xidmətlərinin göstərilməsi;
- vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı Vəkillər Kollegiyasına edilən ödənişlər ("Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir);
- siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş əsas vəsaitlərin idxalı;
- Minatəmizləmə Agentliyinin təsdiqedici sənədi əsasında respublikanın işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, partlayıcı və pirotexniki vasitələrin, onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı – 2023-cü il martın 1-dən **5 il müddətinə;**
- Minatəmizləmə Agentliyinin təsdiqedici sənədi əsasında respublikanın işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu

geyimlərin, alətlərin, partlayıcı və pirotexniki vasitələrin istehsalı və satışı – 2023-cü il martın 1-dən **5 il müddətinə;**

- Energetika Nazirliyinin verdiyi təsdiqedici sənəd əsasında svop əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı - 2024-cü il yanvarın 1-dən **3 il müddətinə.**

**Qeyd:** ƏDV-dən azad olunma halları barədə ətraflı məlumatı **Vergi Məcəlləsinin 164-cü maddəsi**ndən əldə edə bilərsiniz.

## ƏDV qeydiyyatının ləğv edilməsi üçün nə etməlisiniz?

Fəaliyyətin müvəqqəti dayandırılması halları istisna olmaqla, vergi ödəyicisi **ƏDV-yə cəlb olunan əməliyyatlar aparmağı dayandırırsa**, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunmasına dair ərizə verməyə borcludur. Bu halda, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi ödəyicisinin **vergi tutulan əməliyyatları tam dayandırdığı gün qüvvəyə minir.**

Avtonəqliyyat vasitələri ilə respublika ərazisində sərnişin daşımalarını könüllü ƏDV qeydiyyatına alınmaqla həyata keçirən şəxslər ƏDV-nin məqsədləri üçün son qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən **3 il** keçdikdən sonra istənilən vaxt qeydiyyatın ləğv olunmasına dair ərizə verə bilərlər.

Vergi ödəyicisinin vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki **ardıcıl tam 12 təqvim ayı ərzində 100.000 manatdan çox deyilsə**, yuxarıda nəzərdə tutulan hallar istisna edilməklə, vergi ödəyicisi ƏDV-nin məqsədləri üçün son qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən **1 il keçdikdən sonrakı** istənilən vaxt qeydiyyatın ləğv olunmasına dair ərizə verə bilər. ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi orqanına qeydiyyatın ləğv edilməsinə dair **ərizənin verildiyi gün** qüvvəyə minir.

İctimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etdikdə ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi **200.000** manatı keçdiyi aydan sonrakı ayın 1-dən etibarən **10 gün** ərzində fəaliyyətlərini sadələşdirilmiş verginin ödəyicisi kimi davam etdirəcəkləri barədə vergi orqanına yazılı formada ərizə təqdim etməlidirlər.

**Qeyd:** İşğaldan azad edilmiş ərazilərdə həmin ərazinin rezidentlərinə ƏDV üzrə verilən azadolmalar, həmin azadolmaların tətbiq edildiyi subyektlər və əməliyyatlar barədə məlumatı **"İşğaldan azad edilmiş ərazilərdə vergitutma"** adlı bukletdən əldə edə bilərsiniz.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **“Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş”** adlı bukletdən əldə edə bilərsiniz.

VEGİLƏRƏ AİD NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**